**“İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında” Avropa Konversiyasının və onun 1 və 2 saylı Protokollarının təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. 1987-ci il noyabrın 26-da Strasburq şəhərində imzalanmış “İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında” Avropa Konvensiyası və onun 1 və 2 saylı Protokolları müvafiq bəyanat ilə (bəyanatın mətni əlavə olunur) **təsdiq edilsin.**

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 dekabr 2001-ci il
237-IIQ

# İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında
## AVROPA KONVENSİYASI

Avropa Şurasının üzvü olub, bu Konvensiyanı imzalamış dövlətlər

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın müddəalarını nəzərə alaraq;

göstərilən Konvensiyanın 3-cü maddəsinə müvafiq olaraq “Heç kəs işgəncələrə və ya qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaya məruz qalmamalıdır” prinsipini xatırladaraq;

bu Konvensiyada nəzərdə tutulan mexanizmin 3-cü maddənin pozulmasının qurbanları olduqlarını bəyan edən şəxslərə tətbiq olunduğunu vurğulayaraq;

azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və ya cəzadan qorunmasının onlara baş çəkməyə əsaslanan qabaqlayıcı xarakterli məhkəmədən kənar vasitələrlə gücləndirilə biləcəyi qənaətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

### 1-ci fəsil

Maddə 1

İşgəncənin və Qeyri-insani yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Avropa Komitəsi (bundan sonra – “Komitə” adlandırılacaq) yaradılır. Komitə azadlıqdan məhrum edilmiş şəxslərə baş çəkməklə, onlarla necə rəftar edilməsini, zəruri

olduqda, onların işgəncələrdən və ya qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və ya cəzadan qorunmasını gücləndirmək məqsədilə öyrənir.

Maddə 2

Hər bir Tərəf öz yurisdiksiyası hüdudlarında, dövlət hakimiyyəti tərəfindən azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı istənilən yerə bu Konvensiyaya uyğun olaraq baş çəkilməsinə icazə verir.

Maddə 3

Komitə və maraqlı Tərəfin səlahiyyətli orqanları bu Konvensiyanın tətbiq olunmasında bir-biri ilə əməkdaşlıq edirlər.

## 2-ci fəsil

Maddə 4

1. Komitə üzvlərinin sayı Tərəflərin sayına bərabərdir.

2. Komitə üzvləri yüksək əxlaqi keyfiyyətlərə malik, insan hüquqları sahəsində səriştəliliyi ilə tanınan yaxud bu Konvensiyanın əhatə etdiyi sahədə peşə təcrübəsinə malik olan şəxslər sırasından seçilir.

3. Eyni bir dövlətin vətəndaşları olan iki şəxsin Komitə üzvlüyünə yol verilmir.

4. Komitə üzvləri şəxs qismində çıxış edirlər, onlar müstəqil və qərəzsizdirlər, öz funksiyalarını səmərəli yerinə yetirməyə qadirdirlər.

Maddə 5

1. Komitə üzvlərini Avropa Şurası Məşvərət Assambleyası Bürosunun tərtib etdiyi siyahıdan mütləq səs çoxluğu ilə Avropa Şurası Nazirlər Komitəsi seçir; Məşvərət Assambleyasında hər bir Tərəfin milli nümayəndə heyəti üç namizəd irəli sürür, onlardan ən azı ikisi həmin tərəfin vətəndaşı olmalıdır.

2. Yaranmış vakansiyaların doldurulması zamanı da bu cür prosedura riayət olunur.

3. Komitə üzvləri dörd il müddətinə seçilirlər. Onlar yalnız bir dəfə təkrar seçilə bilərlər. Lakin ilk seçkilərdə seçilmiş üç üzvün səlahiyyət müddəti iki ildən sonra bitir. Səlahiyyət müddəti birinci iki illik dövr başa çatdıqda qurtaran üzvləri ilk seçkilərin başa çatmasından dərhal sonra Avropa Şurasının Baş katibi püşk atmaqla müəyyənləşdirir.

Maddə 6

1. Komitə iclaslarını bağlı qapılar arxasında keçirir. Yetərsay Komitə üzvlərinin əksəriyyəti sayılır. Qərarlar 10-cu maddənin 2-ci bəndinin tələblərinə riayət etməklə, iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul edilir.

2. Komitə özünün prosedur qaydalarını işləyib hazırlayır.

3. Komitənin Katibliyi Avropa Şurasının Baş katibi tərəfindən təmin olunur.

## 3-cü fəsil

Maddə 7

1. Komitə 2-ci maddədə göstərilən yerlərə baş çəkilməsini təşkil edir. Vaxtaşırı başçəkmələrlə yanaşı, Komitə konkret şəraitdən çıxış edərək zəruri saydığı başçəkmələri də təşkil etməyə ixtiyarlıdır.

2. Ümumi qaydaya əsasən başçəkmələr Komitənin azı iki üzvü tərəfindən həyata keçirilir. Komitə, zəruri sayarsa, ekspert və tərcüməçilərin köməyindən istifadə edə bilər.

Maddə 8

1. Komitə maraqlı Tərəfin hökumətinə özünün başçəkmə niyyəti barədə bildiriş göndərir. Belə bir bildirişdən sonra Komitənin 2-ci maddədə göstərilən istənilən yerə başçəkməyə ixtiyarı vardır.

2. Tərəf Komitənin öz vəzifələrini yerinə yetirməsi üçün onu:

a. öz ərazisinə gəlmək və məhdudiyyətsiz hərəkət etmək hüququ;

b. azadlıqdan məhrum edilmiş şəxslərin saxlanılma yerləri barədə tam informasiya;

c. azadlıqdan məhrum edilmiş şəxslərin olduğu yerlər daxilində məhdudiyyətsiz hərəkət etmək hüququ da daxil olmaqla, istənilən belə yerə məhdudiyyətsiz daxil olmaq imkanı;

d. Tərəfin malik olduğu və Komitənin öz vəzifələrini yerinə yetirməsi üçün zəruri olan digər informasiya ilə təmin edir. Bu cür informasiya axtarışlarında Komitə milli hüququn və peşə etikasının tətbiq edilən normalarına riayət edir.

3. Komitə azadlıqdan məhrum edilmiş şəxslərlə təklikdə söhbət etməyə ixtiyarlıdır.

4. Komitə ona müvafiq informasiya verə biləcəyini zənn etdiyi istənilən şəxslə sərbəst əlaqə yaratmağa ixtiyarlıdır.

5. Zərurət olduqda Komitə öz qeydlərini dərhal maraqlı Tərəfin səlahiyyətli orqanlarının nəzərinə çatdıra bilər.

Maddə 9

1. Müstəsna hallarda maraqlı Tərəfin səlahiyyətli orqanları Komitənin başçəkmə üçün təklif etdiyi konkret vaxta və ya konkret yerə qarşı etirazlardan ibarət təqdimatla Komitəyə müraciət edə bilərlər. Bu cür təqdimatlar yalnız milli müdafiə, ictimai təhlükəsizlik, azadlıqdan məhrum edilmiş şəxslərin saxlanılma yerlərində ciddi iğtişaşlar olması, şəxsin tibbi vəziyyəti və ya ağır cinayət törədilməsi ilə bağlı təxirəsalınmaz dindirmə aparılması ilə əlaqədar verilə bilər.

2. Bu cür təqdimat olduqda Komitə və Tərəf vəziyyətin araşdırılması və Komitənin öz vəzifələrini təxirə salmadan icra etməsinə imkan verən tədbirlər haqqında razılıq əldə edilməsi məqsədilə dərhal məsləhətləşmələrə başlayırlar. Bu cür tədbirlər Komitənin baş çəkmək niyyətində olduğu şəxsin başqa yerə köçürülməsini də nəzərdə tuta bilər. Başçəkmədən əvvəl Tərəf Komitəni maraqlandıran istənilən şəxs barədə ona informasiya təqdim etməyə borcludur.

Maddə 10

1. Hər bir başçəkmədən sonra Komitə, maraqlı Tərəfin ona təqdim edə biləcəyi bütün qeydləri nəzərə almaqla, başçəkmə zamanı müəyyən edilmiş faktlar haqqında məruzə hazırlayır. Komitə öz mülahizəsinə görə zəruri saydığı istənilən tövsiyələrdən ibarət sonuncu məruzəni göndərir. Komitə, zəruri olduqda, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinin yaxşılaşdırılması barədə təkliflər vermək məqsədilə məsləhətləşmələrə başlaya bilər.

2. Əgər Tərəf əməkdaşlığa girmirsə yaxud vəziyyəti Komitənin tövsiyələrinə uyğun olaraq düzəltməkdən imtina edirsə, Tərəfə öz mövqeyini bildirmək imkanı verildikdən sonra Komitə üzvlərin üçdə iki səs çoxluğu ilə qərar qəbul edə, bu məsələyə dair bəyanat verə bilər.

Maddə 11

1. Başçəkmə ilə bağlı Komitənin topladığı informasiya, onun məruzəsi və Tərəflə məsləhətləşmələri məxfi xarakterlidir.

2. Komitə öz məruzəsini maraqlı Tərəfin xahişi ilə onun istənilən şərtləri ilə birlikdə istənilən vaxt dərc edir.

3. Lakin şəxsi xarakterli heç bir məlumat maraqlı şəxsin razılığı olmadan açıqlana bilməz.

Maddə 12

11-ci maddədə müəyyən edilmiş məxfilik qaydalarına riayət etmək şərti ilə Komitə hər il Nazirlər Komitəsinə öz fəaliyyəti haqqında ümumi hesabat təqdim edir, həmin hesabat Məşvərət Assambleyasına verilir və açıqlanır.

Maddə 13

Komitə üzvləri, ekspertlər və Komitəyə yardım göstərən digər şəxslər öz vəzifələrinin icrası ilə bağlı onlara bəlli olan faktları və informasiyanı həm işlədikləri vaxt, həm də iş dövrü başa çatdıqdan sonra gizli saxlamağa borcludurlar.

Maddə 14

1. Komitəyə yardım göstərən şəxslərin adları 8-ci maddənin 1-ci bəndinə uyğun olaraq Komitənin göndərdiyi bildirişdə göstərilməlidir.

2. Ekspertlər onların hərəkətlərinə görə məsuliyyət daşıyan Komitənin göstərişlərinə uyğun işləyirlər; Komitə onların hərəkətlərinə görə məsuliyyət daşıyır. Onlar bu Konvensiyanın əhatə etdiyi sahələr üzrə xüsusi biliklərə və təcrübəyə malik olmalı, həmçinin Komitənin üzvləri kimi, müstəqil, qərəzsiz və öz funksiyalarını səmərəli yerinə yetirməyə qadir olmalıdırlar.

3. Tərəf istisna qaydasında elan edə bilər ki, ekspertin yaxud Komitəyə kömək göstərən digər şəxsin Tərəfin yurisdiksiyası hüdudlarında müvafiq yerə baş çəkilməsində iştirakına icazə verilmir.

**4-cü fəsil**

Maddə 15

Hər bir Tərəf onun hökuməti üçün bildirişləri almaq səlahiyyətinə malik olan dövlət orqanının adını və ünvanını, həmçinin Tərəfin əlaqə üçün təyin edə biləcəyi vəzifəli şəxsin adını Komitəyə bildirir.

Maddə 16

Komitə, onun üzvləri və 7-ci maddənin 2-ci bəndində göstərilən ekspertlər bu Konvensiyanın Əlavəsində nəzərdə tutulan imtiyaz və immunitetlərdən istifadə edirlər.

Maddə 17

1. Bu Konvensiya daxili qanunun müddəalarına yaxud azadlıqdan məhrum edilmiş şəxslər üçün daha geniş müdafiə müəyyənləşdirən beynəlxalq sazişlərə ziyan vurmur.

2. Bu Konvensiyada heç bir şey insan hüquqları üzrə Avropa Konvensiyası orqanlarının səlahiyyətini yaxud Tərəflərin bu Konvensiya üzrə öz üzərlərinə götürdükləri öhdəlikləri məhdudlaşdıran və ya azaldan kimi təfsir oluna bilməz.

3. Komitə 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyası və ona dair 1977-ci il 8 iyun tarixli Əlavə Protokollar əsasında hamı dövlətlərin yaxud Beynəlxalq Qırmızı Xaç Komitəsinin təmsilçilərinin və ya nümayəndə heyətlərinin vaxtaşırı olaraq səmərəli baş çəkdiyi yerlərə getmir.

**5-ci fəsil**

Maddə 18

Bu Konvensiya Avropa Şurasının üzvü olan dövlətlərin imzalaması üçün açıqdır. O ratifikasiya edilməli, qəbul və ya təsdiq olunmalıdır. Təsdiqnamələr, qəbuletmə və ya təsdiqetmə haqqında sənədlər saxlanılmaq üçün Avropa Şurasının Baş katibinə təhvil verilir.

Maddə 19

1. Bu Konvensiya Avropa Şurasının üzvü olan yeddi dövlətin bu Konvensiyada nəzərdə tutulmuş öhdəlikləri 18-ci maddənin müddəalarına uyğun olaraq öz üzərlərinə götürməyə razılıq verdikləri gündən üç aylıq müddətin bitməsindən sonra gələn ayın birinci günü qüvvəyə minir.

2. Konvensiyada nəzərdə tutulmuş öhdəlikləri öz üzərlərinə götürməyə sonradan razılıq bildirən hər bir üzv dövlətə münasibətdə bu Konvensiya təsdiqnamənin yaxud qəbuletmə və ya təsdiqetmə haqqında sənədin depozitə verildiyi gündən üç aylıq müddətin bitməsindən sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 20

1. Hər bir dövlət təsdiqnamənin yaxud qəbuletmə və ya təsdiqetmə haqqında sənədin imzalanması yaxud depozitə verilməsi zamanı bu Konvensiyanın şamil edildiyi ərazini və ya əraziləri müəyyənləşdirməyə ixtiyarlıdır.

2. Hər bir dövlət gələcəkdə istənilən vaxt Avropa Şurasının Baş katibinə ünvanlanmış bəyannamə vasitəsi ilə bu Konvensiyanın qüvvəsini bəyannamədə müəyyən edilmiş istənilən digər əraziyə şamil etməyə ixtiyarlıdır.

Həmin ərazi barədə Konvensiya Baş katibin belə bir bəyannaməni aldığı gündən üç aylıq müddətin bitməsindən sonra gələn ayın birinci günü qüvvəyə minir.

3. İki əvvəlki paraqrafa müvafiq olaraq verilmiş bəyannamə Baş katibə bildiriş göndərmək yolu ilə belə bəyannamədə müəyyən edilmiş istənilən ərazi barədə geri götürülə bilər. Geri götürmə Baş katibin bu cür bildirişi aldığı gündən üç aylıq müddətin bitməsindən sonra qüvvəyə minir.

Maddə 21

Bu Konvensiyanın müddəalarına dair heç bir qeyd-şərtə yol verilmir.

Maddə 22

1. Hər bir Tərəf Avropa Şurasının Baş katibinə bildiriş göndərmək yolu ilə bu Konvensiyanı istənilən vaxt etibarsız elan edə bilər.

2. Bu cür etibarsız elan etmə Baş katibin bildirişi aldığı gündən on iki ay keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 23

Avropa Şurasının Baş katibi Avropa Şurasının üzvü olan dövlətlərə:

a. hər bir imzalama;

b. hər bir təsdiqnamənin, qəbuletmə və ya təsdiqetmə haqqında sənədin depozitə verilməsi;

c. 19-cu və 20-ci maddələrə müvafiq olaraq Konvensiyanın hər bir qüvvəyə minmə tarixi barədə;

d. 8-ci və 10-cu maddələrə müvafiq olaraq edilən hərəkətlər istisna olmaqla, bu Konvensiyaya aidiyyəti olan hər hansı digər hərəkət, bildiriş və ya məlumat barədə xəbər verir.

Bunun təsdiqi olaraq, lazımi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

Strasburqda, 1987-ci il noyabrın 26-da hər iki mətni eyni qüvvəyə malik olan bir nüsxədə, ingilis və fransız dillərində imzalanmışdır. Həmin nüsxə Avropa Şurasının arxivində saxlanılır. Avropa Şurasının Baş katibi təsdiq edilmiş surətləri Avropa Şurasının üzvü olan hər bir dövlətə göndərir.

**ƏLAVƏ**

## İmtiyazlar və immunitetlər
(Maddə 16)

1. Bu Əlavənin məqsədləri üçün Komitə üzvlərinə istinadlar 7-ci maddənin 2-ci paraqrafında adıçəkilən ekspertlərə şamil olunur.

2. Komitə üzvləri vəzifələrini icra edərkən və vəzifələrinin icrası ilə bağlı səfərlər zamanı aşağıdakı imtiyaz və immunitetlərə malikdirlər:

a) həbsə yaxud tutulmaya və şəxsi baqajı üzərinə həbs qoyulmasına qarşı, eləcə də rəsmi şəxslər qismində onların bütün dedikləri və ya yazdıqları və etdikləri üçün immunitetə, hər növ yurisdiksiya üçün immunitetə;

b) yaşadıqları ölkəyə gəlib-getmək və onların öz vəzifələrini icra etdikləri ölkəyə gəlib-gedərkən yerdəyişmə sərbəstliyinə və onların başçəkməni həyata keçirdikləri ölkədə yaxud öz vəzifələrinin icrası ilə bağlı ərazisindən keçib getdikləri ölkədə əcnəbilər qismində qeydiyyatdan keçmələrinə hər hansı məhdudiyyətlərin şamil edilməməsi.

3. Vəzifələrin icrası ilə bağlı səfərlər zamanı gömrük və valyuta nəzarəti sahəsində Komitə üzvləri;

a. öz dövlətinin hökuməti tərəfindən - müvəqqəti rəsmi missiyanın yerinə yetirilməsi ilə bağlı xaricə səfər edən yüksək vəzifəli şəxslər üçün nəzərdə tutulan eyni şəraitlə;

b. digər Tərəflərin hökumətləri tərəfindən - xarici hökumət nümayəndələrinin öz müvəqqəti rəsmi missiyasını yerinə yetirdikləri zaman onlar üçün nəzərdə tutulan eyni şəraitlə təmin olunurlar.

4. Rəsmi və iş sənədləri Komitənin fəaliyyətinə aid olduğuna görə toxunulmazdır.

Rəsmi korrespondensiya və digər rəsmi məlumatlar saxlanıla və ya senzuradan keçirilə bilməz.

5. Öz vəzifələrinin icrası zamanı Komitə üzvlərinin tam söz azadlığının və tam müstəqilliyinin təmin edilməsi üçün onların öz vəzifələrini icra edərkən bütün dedikləri, yazdıqları və etdiklərinə görə yurisdiksiya üçün immunitet, bu şəxslərin belə vəzifələri icra etməsinə xitam verilməsinə baxmayaraq saxlanılır.

6. İmtiyaz və immunitetlər Komitə üzvlərinə onların şəxsi faydası üçün deyil, öz vəzifələrini müstəqil icra etmələrinin təmin olunması üçün verilir. Yalnız Komitə öz üzvlərini immunitetdən məhrum etmək hüququna malikdir; Komitənin mülahizəsinə görə, immunitet ədalət mühakiməsinin həyata keçirilməsinə mane olursa və immunitetdən məhrumetmə bu immunitetin verildiyi məqsədlərə ziyan vurmursa, Komitə öz üzvlərini nəinki immunitetdən məhrum etməyə ixtiyarlıdır, həm də bunu etməyə borcludur.

**“İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında” Avropa Konvensiyasına dair**
**1 nömrəli PROTOKOL**

*Strasburq, 4 noyabr 1993-cü il*

Strasburqda 1987-ci il noyabrın 26-da imzalanmış işgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında Avropa Konvensiyasına (bundan sonra – “Konvensiya” adlandırılacaq) dair bu Protokolu imzalamış, Avropa Şurasının üzvü olan dövlətlər,

Avropa Şurasının üzvü olmayan dövlətlərə Nazirlər Komitəsinin dəvəti ilə Konvensiyaya qoşulmaq imkanı verilməsinin vaxtı çatdığını hesab edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinə aşağıdakı redaksiyada yarımbənd əlavə edilir:

“Komitəyə Avropa Şurasının üzvü olmayan dövlət üzv seçildiyi halda Məşvərət Assambleyasının Katibliyi maraqlı dövlətin parlamentinə azı iki nəfəri onun vətəndaşı olan üç namizəd təqdim etmək xahişi ilə müraciət edir. Nazirlər Komitəsi tərəfindən seçilmə maraqlı Tərəflə məsləhətləşmədən sonra həyata keçirilir”.

Maddə 2

Konvensiyanın 12-ci maddəsi belə oxunmalıdır:

“Komitə 11-ci maddənin müddəalarında nəzərdə tutulmuş məxfilik qaydalarına riayət etməklə hər il Nazirlər Komitəsinə öz fəaliyyəti barədə ümumi hesabat təqdim edir, bu hesabat Məşvərət Assambleyasına, həmçinin Avropa Şurasının üzvü olmayan, Konvensiya iştirakçısı olan istənilən dövlətə təqdim olunur və açıqlanır”.

Maddə 3

Konvensiyanın 18-ci maddəsinin mətni elə həmin maddənin 1-ci bəndi olur və maddəyə aşağıdakı redaksiyada 2-ci bənd əlavə edilir;

“2. Avropa Şurasının Nazirlər Komitəsi Avropa Şurasının üzvü olmayan istənilən dövləti Konvensiyaya qoşulmağa dəvət edə bilər”.

Maddə 4

Konvensiyanın 19-cu maddəsinin 2-ci bəndində “üzvün” sözü çıxarılır, “və ya təsdiqetmə” sözləri isə “təsdiqetmə və yaxud qoşulma” sözləri ilə əvəz edilir.

Maddə 5

Konvensiyanın 20-ci maddəsinin 1-ci bəndində “yaxud təsdiqetmə” sözləri “təsdiqetmə və ya qoşulma” sözləri ilə əvəz edilir.

Maddə 6

1. Konvensiyanın 23-cü maddəsinin giriş cümləsi belə oxunmalıdır:

"Avropa Şurasının Baş katibi üzv dövlətlərə, eləcə də Avropa Şurasının üzvü olmayan, Konvensiyanın iştirakçısı olan istənilən dövlətə".

2. Konvensiyanın 23-cü maddəsinin (b) bəndində "və ya təsdiqetmə" sözləri "təsdiqetmə yaxud qoşulma" sözləri ilə əvəz edilir.

Maddə 7

1. Bu Protokol Avropa Şurasının üzvləri, Konvensiya iştirakçıları olan, aşağıdakılarla bağlı olmağa öz razılığını bildirən dövlətlərin imzalaması üçün açıqdır:

a) ratifikasiya, qəbuletmə və ya təsdiqetmə barədə qeyd-şərt olmadan imzalamaq; yaxud:

b) sonradan ratifikasiya, qəbuletmə və ya təsdiqetmə barədə qeyd-şərtlə imzalamaq.

2. Təsdiqnamələr, qəbuletmə və ya təsdiqetmə barədə sənədlər saxlanılmaq üçün Avropa Şurasının Baş katibinə təhvil verilir.

Maddə 8

Bu Protokol bütün Konvensiya iştirakçılarının 7-ci maddənin müddəalarına müvafiq olaraq Protokolla bağlı olmağa Öz razılıqlarını bildirdikləri tarixdən etibarən üç aylıq müddətin bitməsindən sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 9

Avropa Şurasının Baş katibi Avropa Şurasının üzvü olan dövlətlərə:

a. istənilən imzalama;

b. istənilən təsdiqnamənin, qəbuletmə və ya təsdiqetmə barədə istənilən sənədin saxlanılmaq üçün təhvil verilməsi barədə;

c. 8-ci maddənin müddəalarına müvafiq olaraq bu Protokolun qüvvəyə minmə tarixi barədə;

d. bu Protokola aidiyyəti olan istənilən digər akt, bildiriş və ya məlumat barədə xəbər verir.

Bunun təsdiqi olaraq, lazımi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

Strasburqda, 1993-cü il noyabrın 4-də ingilis və fransız dillərində, hər iki mətni eyni qüvvəyə malik olan yeganə nüsxədə imzalanmışdır. Həmin nüsxə Avropa Şurasının arxivində saxlanılır. Avropa Şurasının Baş katibi təsdiq edilmiş surətləri Avropa Şurasının üzvü olan dövlətlərin hər birinə göndərir.

**“İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında” Avropa Konvensiyasına dair**
**2 nömrəli PROTOKOL**

Strasburqda 1987-ci il noyabrın 26-da imzalanmış İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında Avropa Konvensiyasına (bundan sonra – “Konvensiya” adlandırılacaq) dair bu Protokolu imzalamış Avropa Şurasının üzvü olan dövlətlər,

İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin (bundan sonra – “Komitə” adlandırılacaq) üzvlərinə iki dəfə təkrar seçilmək imkanı verilməsinin məqsədəuyğunluğuna əmin olaraq,

bundan əlavə, Komitə üzvlərinin qaydaya salınmış təkrar seçilməsini zəruri sayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Konvensiyanın 5-ci maddəsinin 3-cü bəndinin ikinci cümləsi aşağıdakı redaksiyada oxunmalıdır:

“Onlar iki müddətə seçilə bilərlər”.

2. Konvensiyanın 5-ci maddəsinə aşağıdakı redaksiyada 4-cü və 5-ci bəndlər əlavə edilir:

“4. İmkan daxilində Komitənin tərkibinin yarısının hər iki ildən bir yenidən seçilməsini təmin etmək məqsədilə Nazirlər Komitəsi istənilən növbəti seçkilərin keçirilməsinədək qərar qəbul edə bilər ki, seçilən bir və ya bir neçə üzv dörd il müddətindən fərqli səlahiyyət müddətinə malik olacaq, bu zaman onların səlahiyyət müddəti altı ildən artıq yaxud iki ildən az ola bilməz.

5. Əgər söhbət bir neçə səlahiyyət müddətindən gedirsə və Nazirlər Komitəsi bundan əvvəlki bəndin müddəalarına müvafiq hərəkət edirsə, səlahiyyət müddətlərinin bölüşdürülməsi Avropa Şurasının Baş katibi tərəfindən seçkilərdən dərhal sonra püşkatma yolu ilə müəyyənləşdirilir”.

Maddə 2

1. Bu Protokol Konvensiyanın iştirakçısı olan dövlətlərin yaxud:

a. ratifikasiya, qəbuletmə və ya təsdiqetmə barədə qeyd-şərt olmadan imzalamaq;

b. sonradan ratifikasiya, qəbuletmə və ya təsdiqetmə barədə qeyd-şərtlə imzalamaq yolu ilə bu Protokolla bağlı olmağa öz razılıqlarını ifadə edə bilən, Konvensiyaya qoşulan dövlətlərin imzalaması üçün açıqdır.

2. Təsdiqnamələr, qəbuletmə və ya təsdiqetmə barədə sənədlər saxlanılmaq üçün Avropa Şurasının Baş katibinə təhvil verilir.

Maddə 3

Bu Protokol Konvensiyanın bütün iştirakçılarının Protokolla 2-ci maddənin müddəalarına müvafiq qaydada bağlı olmağa öz razılıqlarını bildirdikləri tarixdən üç aylıq müddətin bitməsindən sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 4

Avropa Şurasının Baş katibi Avropa Şurasının üzvü olan dövlətlərə və Konvensiya iştirakçıları olub, Avropa Şurasının üzvü olmayan dövlətlərə:

a. istənilən imzalama;

b. istənilən təsdiqnamənin, qəbuletmə və ya təsdiqetmə barədə hər hansı sənədin saxlanılmaq üçün təhvil verilməsi barədə;

c. 3-cü maddənin müddəalarına müvafiq olaraq bu Protokolun qüvvəyə minmə tarixi barədə;

d. bu Protokola aidiyyəti olan istənilən digər akt, bildiriş və ya məlumat barədə xəbər verir.

Bunun təsdiqi olaraq, lazımi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

Strasburqda, 1993-cü il noyabrın 4-də ingilis və fransız dillərində, hər iki mətni eyni qüvvəyə malik olan yeganə nüsxədə imzalanmışdır. Həmin nüsxə Avropa Şurasının arxivində saxlanılır. Avropa Şurasının Baş katibi təsdiq edilmiş surətləri Avropa Şurasının üzvü olan dövlətlərin hər birinə göndərir.

## “İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında” Avropa Konvensiyasına dair Azərbaycan Respublikasının BƏYANATI

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Konvensiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur).